BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3* *Humanitar elmlər seriyası* *2009*

# AZƏRBAYCAN GƏNCLƏRİNİN BEYNƏLXALQ ƏLAQƏLƏRİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ

**H.R.CƏFƏROV**
***Naxçıvan Dövlət Universiteti***
***hamzacafarov@yahoo.com***

*Məqalədə son dövrlərdə Azərbaycan gənclərinin Respublikanın ictimai-siyasi həyatında istirakından bir sıra beynəlxalq gənclər təşkilatının (Sərhədsiz Gənclər Təşkilatı, Azərbaycan Könüllülər İctimai Birliyi, Azərbaycan Gənclərinin İnformasiya Mərkəzi) yaranmasından bəhs olunur.*

Azərbaycan müstəqillik əldə etdikdən sonra əhalinin bütün təbəqələri, sosial qrupları arasında müşahidə olunan milli oyanış, sosial-siyasi fəallıq gənclərdən də yan keçmədi. Azərbaycan gəncliyində yeni prinsiplər, mənəvi dəyərlər, həyata yeni baxışlar sistemi formalaşmağa başladı. Məqsəd və vəzifələrinə, fəaliyyət istiqamətlərinə, sosial tərkibinə görə bir-birindən dəyərli, yeni, müstəqil gənclər təşkilatları yaranmağa başladı. İlk gənclər təşkilatları əsasən kortəbii şəkildə respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda xalq hərəkatının təsiri altında təşəkkul tapmağa başlamışdılar. Lakin 1991-1993-cü illərdə respublikada hökm sürən hərc-mərclik şəraitində təşəkkül tapmış gənclər təşkilatlarının çoxunda siyasiləşmə, populizm meyilləri özünü biruzə verdi. Bu təşkilatların bir çoxu o dövrdə fəaliyyət göstərən müxtəlifyönlü siyasi partiya və qrumların təsiri altına düşdü. Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün qorunması, ölkədə hüquqi-demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi partiya və qurumların deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin həyata keçirilməsi zərurətini ortaya atdı (4, 403-408).

Hakimiyyətə ikinci dəfə qayıdışından sonra Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən biri də gənc nəslə diqqət və qayğının artırılması, yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsi, ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatında gənclərin fəal iştirakının təmin edilməsi, gənclərin sosial-mənəvi ehtiyaclarının ödənilməsi, onların gələcəyin layiqli vətəndaşları kimi formalaşması üçün münbit şəraitin yaradılması olmuşdur. Bu da təbiidir. Çünki gənclər xalqın ümidi, onun inkişafının və yüksəlişinin əsas meyarı və barometridir. Hər bir cəmiyyətin maddi-mənəvi tərəqqisi gənclər siyasətinin düzgün qurulmasından, gənclərin sosial, psixoloji vəziyyətindən, fəaliyyət şəraitindən asılıdır. Gənclər siyasəti – gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında onların fəal iştirakını təmin etmək məqsədilə dövlət tərəfindən həyata keçirilən tədbirlər sistemidir. Bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin çox geniş bir spektri–gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı, asudə vaxtının təşkili, problemlərinin həlli, hüquqlarının müdafiəsi, respublikanın ictimai-siyasi, mədəni həyatında iştirakı ilə bağlı məsələləri və s. əhatə edir.

Gənclərlə iş sahəsində beynəlxalq əlaqələrin qurulması da əsas fəaliyyət istiqamətlərindən biridir. Bu məqsədlə BMT, Avropa Şurası, Avropa Birliyi və s. beynəlxalq təşkilatların gənclər proqramlarına qoşularaq əməkdaşlıq əlaqələri yaratmaq üçün Azərbaycanda akreditə olunmuş səfirlik və nümayəndəliklərlə, müxtəlif ölkələrin gənclər qurumları ilə mütəmadi görüşlər və danışıqlar aparılır. Bir sıra MDB ölkələri ilə, ÇXR, Türkiyə ilə qarşılıqlı əməkdaşlıq müqavilələri imzalanmışdır. 1999-cu ilin oktyabrında ABŞ-ın Horopulu şəhərində keçirilən Dünya Gənclərinin Minillik Konqresində Azərbaycan 30 nəfərlik nümayəndə heyəti ilə təmsil olunmuşdu.

Bu gün Azərbaycan gənclərinin fəal hissəsi həmin təşkilatlarda birləşmişlər. Əgər 1997-ci ilin əvvəllərində gənclər təşkilatlarının sayı 60-a yaxın idisə (3, 25), 2000-ci ildə onların sayı artıq 120-dən artıq idi. Bu təşkilatların əksəriyyəti konfederativ qurum olan Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının üzvüdür. 1995-ci il noyabrın 21-də təsis olunmuş və 1996-cı il yanvarın 31-də Ədliyyə Nazirliyində qeydiyyata alınmış ARGTMŞ ilk vaxtlar öz ətrafında 30-a yaxın təşkilatı birləşdirirdi. 1997-ci il oktyabrın 27-də Naxçıvan MR-də GTMŞ yaradılmış və oraya 7 gənclər təşkilatının nümayəndəsi daxil olmuşdu (3, 441). Şuranın əsas məqsədi respublikada mövcud olan gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirmək, Azərbaycan gəncliyini beynəlxalq aləmdə tanıtmaq, dövlət quruculuğuna gənclərin yaxından cəlb edilməsi, onların hərbi-vətənpərvərlik tərbiyəsi, çoxsaylı problemlərin həlli istiqamətində birgə iş aparmaqdan ibarətdir. Qısa müddətdə Milli Şura bu istiqamətlərdə real addımlar atmış, bir sıra beynəlxalq gənclər qurumları ilə sıx əlaqələr yarada bilmişdir. Bunlardan Avropa Gənclər Mərkəzinin, Avropa Gənclər Forumunun, Avropa Milli Gənclər Komitələri Şurasının, Dünya Türk Gəncləri Birliyinin adını çəkmək olar.

Avropa Gənclər Forumunun nümayəndələri 1996-cı ilin fevralında Bakıda səfərdə olmuş, Azərbaycan gənclər təşkilatları ilə tanış olmuşdur. Bundan sonra AGTMŞ AKF tərəfindən hazırlanmış bir sıra beynəlxalq tədbirlərə dəvət edilmişlər. Milli Şura həmçinin BMT sistemindəki Ümumdünya Gənclər Forumu ilə də əlaqələr yaratmış, təşkilatın 1996-cı ilin mayında İstanbulda keçirilmiş tədbirlərində fəal iştirak etmişlər. Milli Şura öz fəaliyyətində regional əməkdaşlığa da xüsusi yer verir. 1996-cı ilin martından başlayaraq MŞ Avropa İttifaqı tərəfindən dəstəklənən «Qafqaz gəncləri dialoqunun» fəal iştirakçısıdır. Dialoqun əsas məqsədi Qafqazda sülhün bərqərar edilməsində gənclərin iştirakını təmin etməkdir. Azərbaycan gənclər təşkilatları İslam Konfransı Təşkilatı (İKT) və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində gənclər əməkdaşlığına qoşulmuşdur. Ötən müddət ərzində bir sıra beynəlxalq gənclər, o cümlədən «Gənclər Avropada Təhlükəsizlik Uğrunda», «Əlillərin Beynəlxalq Əməkdaşlığı Uğrunda», «Dünya Skaut Assosiasiyası», «Beynəlxalq Gənclik Klubu» və s. təşkilatlarının Azərbaycanda özəyi yaradılmışdır. Nəhayət, 2000-ci ilin aprelində Milli Şura Avropada ən nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilatı olan Avropa Gənclər Forumuna tamhüquqlu, 2002-ci ilin yanvarında isə BMT-nin İqtisadi və Sosial Şurasına müşahidəçi üzv seçilmişdir.

Azərbaycanın Avropa Şurasına qəbulunda gənclər təşkilatlarının Milli Şurasının böyük xidmətləri olmuşdur. Avropa Şurası Gənclər və İdman Direktorluğunun ölkəmizdə olan gənclər hərəkatı barədə hesabatları yüksək qiymətləndirilmiş və Azərbaycanın Avropa Şurasına qəbulunda öz müsbət təsirini göstərmişdir. Həyata keçirilən işlərin nəticəsi olaraq bir neçə uşaq və gənclər təşkilatı beynəlxalq təşkilatlarda təmsil olunmaq hüququ əldə etmişlər. Məsələn, Azərbaycan Skautlar

Assosiasiyası Ümumdünya Skaut Hərəkatı Təşkilatına, Gənc Hüquqşünaslar Birliyi Gənc Hüquqşünasların Beynəlxalq Assosiasiyasına, Azərbaycan Demokratik Tələbə Gənclər hərəkatı Avropa Demokratik Tələbə İttifaqına, Dünya Gənc Türk Yazarlar Birliyi Dünya Türk Gəncləri Birliyinə və s. üzv daxil edilmişdir (7, 64).

Gənclər təşkilatlarının respublikanın ictimai-siyasi həyatında fəal iştirak etmələri, onların beynəlxalq əməkdaşlığa və təcrübə mübadilələrinə cəlb edilmələri üçün müxtəlif layihələr həyata keçirilmiş və keçirilməkdədir. Bu istiqamətdə AGSDT-nın Gənc lider», Əlillərin Beynəlxalq Əməkdaşlığı Uğrunda Cəmiyyəti (ƏBƏUC) Sağlamlıq layihələri, Maarifçi Gənclər Təşkilatının «Gənclərin maarifləndirilməsi», «Uşaq-gənclərlə bağlı qanunvericiliyin formalaşması» proqramları qəbul edilmişdir. 1999-cu ildə AGTMŞ III konfransının keçirilməsi mühüm hadisə oldu. Konfrans göstərdi ki, gənclərimiz öz problemlərini konstruktiv şəkildə müzakirə etmək bacarığı nümayiş etdirirlər. Diqqətəlayiq haldır ki,Milli Şura müşahidəçi statusu olmadan Avropa Gənclər Forumuna tamhüquqlu üzv qəbul edilmişdir.

Son dövrlərdə Azərbaycan gənclərinin beynəlxalq əlaqələri daha da genişlənmişdir. Azərbaycan gəncləri həm ölkə daxilində, həm də xaricdə bir sıra beynəlxalq tədbirlərdə iştirak edərək gənclərin problemləri ilə yanaşı, respublikamızın həqiqətləri barədə öz həmyaşıdlarını məlumatlandırmışlar. 2005-ci ilin aprelində Azərbaycanın bir sıra gənclər təşkilatının (Sərhədsiz Gənclər Təşkilatı, Azərbaycan Könüllülər İctimai Birliyi, Azərbaycan Gənclərinin İnformasiya Mərkəzi) Avropa Şurasının Gənclər və İdman Direktorluğu və ARGİTN Bakıda birgə Beynəlxalq Forum keçirmişdir. 25 ölkənin təmsil olunduğu bu forumun məqsədi gənclərdə Avrasiya Gənclər Forumu ideyasını reallaşdırmaqdır. 2006-cı ilin avqustunda Beynəlxalq gənclər günü münasibətilə ARGTMŞ-nın dəvəti ilə müxtəlif ölkələrin gənclər təşkilatlarının nümayəndələri Bakıda Milli Məclisdə, Nazirlər Kabinetində, ARGİN-də, eləcə də müxtəlif gənclər təşkilatlarında olmuş, Azərbaycanda həyata keçirilən gənclər siyasəti ilə yaxından tanış olmuşlar (2, 2006, 16 avqust).

2006-cı ilin noyabrında Bakıda GUAM ölkələri Gənclər Forumunun I Konqresini xüsusi qeyd etmək lazımdır. Bu forumun yaradılması ideyasını Azərbaycan gəncləri irəli sürmüşlər. Qurumun əsas məqsədi – nəzərdə tutulmuş planları həyata keçirmək üçün GUAM ölkələri gənclərinin səylərini birləşdirən regional təhlükəsizlik, gənclər təşkilatlarının inkişafı naminə əməkdaşlığı möhkəmləndirməkdən ibarətdir. Həmin konqresdə bir sıra mühüm sənədlər qəbul edilmişdir ki,onlar arasında münaqişə zonaları haqqında bəyannaməni xüsusi qeyd etmək lazımdır. Forumda nizamnamə, fəaliyyət proqramı qəbul edilmiş, Mərkəzi Şura seçilmişdir. Konqresin qəbul etdiyi yekun qətnaməsində beynəlxalq ictimaiyyəti və təşkilatları GUAM məkanında davam edən münaqişələrə münasibəti vahid standartlara, yəni beynəlxalq hüququn ərazi bütövlüyünün və sərhədlərin toxunulmazlığının tanınması prinsiplərinə əsaslanmasıdır (5).

Azərbaycan gənclərinin beynəlxalq əlaqələrində İslam ölkələri gəncləri ilə əməkdaşlıq xüsusi yer tutur. Məhz Azərbaycan gənclərinin təşəbbüsü və Azərbaycan hökumətinin dəstəyi ilə 2004-cü ilin dekabrında Bakı şəhərində İslam Konfransı Təşkilatı (İKT) Dialoq və Əməkdaşlıq Uğrunda Gənclər Forumu təsis edilmiş, Foruma İKT-ə üzv olan 35 ölkədə fəaliyyət göstərən 40-dək gənclər təşkilatı daxil olmuşdur. Xarici İşlər Nazirlərinin (XİN) 33-cü konfransının qərarı ilə İKT-nin 20 illik tarixində ilk dəfə olaraq bu Foruma təşkilatın üzv–qurumu statusu verilmişdir. Forumun fəaliyyətinin əsas istiqamətlərindən biri də İKT üzv ölkələrin üzləşdiyi

işğal, təcavüz haqqında həqiqətlərin dünyada geniş yayılmasına nail olmaqdır. Bu məqsədlə 2006-cı ilin iyununda Forum İKT ölkələrində yaymaq məqsədi ilə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti haqqında ilk dəfə olaraq ərəb dilində «Qarabağ: faktlar və gənclər» adlı kitab çap etdirmişdir. İKT ƏDUGF 2006-cı il sentyabr ayında İstanbulda daimi qərargahı açılmış və bu mərasimdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləmişdir. Forumun prezidenti türkiyəli Əli Sarıkaya, baş katibi isə azərbaycanlı Elşad İsgəndərovdur. Forumun təşkilatlanma prosesini gücləndirmək məqsədilə Azərbaycan dövləti təşkilatın büdcəsinə 100 min ABŞ dolları köçürmək haqqında qərar qəbul etmişdir (6).

Azərbaycan GTMŞ-nın həyata keçirdiyi son böyük tədbirlərdən biri də 2007-ci ilin aprelində Bakıda Avropa Gənclər Forumunun üzvlərinin iclasının keçirilməsi oldu. İclasda 44 ölkənin 75 beynəlxalq gənclər təşkilatının 150 nümayəndəsi iştirak etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forum iştirakçılarına təbrik teleqramı göndərmişdi. Forum çərçivəsində AGF-nın, Azərbaycan-Avropa xüsusi layihəsinin icrasına balanılmış, AGF ilə İKT GF arasında xüsusi memorandum imzalanmışdır (1).

Azərbaycan gəncləri Türkdilli dövlətlərin gənclər təşkilatları arasında əməkdaşlığın inkişafında da aparıcı rol oynayırlar. Təsadüfi deyildir ki, Dünya Türk Gənclərinin bir neçə toplantısı məhz AGTMŞ təşkilatçılığı ilə Bakıda keçirilmişdir.

Gənclərimiz Azərbaycanın dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı əlaqələrin yaradılmasında da fəal rol oynayırlar. Azərbaycan-Amerika Gənclər Birliyi, Azərbaycan-Böyük Britaniya gənclərinin Açıq Dostluq Cəmiyyəti və b. təşkilatların bu sahədə xüsusi xidmətləri vardır. Xaricdə təhsil alan tələbələrimiz də təhsil aldıqları ölkələrdə dostluq cəmiyyətləri təsis edərək Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fəal iştirak edirlər. Məsələn, Yaponiyada təhsil alan tələbələrimiz burada Azərbaycan-Yaponiya Dostluq Cəmiyyətinin yaradıcılarıdır (8). Belə cəmiyyətlər Misirdə, Fransada, Rusiyada, Türkiyədə və b. ölkələrdə oxuyan tələbələrimiz tərəfindən də təsis edilib.

Bu gün Heydər Əliyev Fondunun yerinə yetirdiyi mühüm missiyalardan biri də Azərbaycanın dünya miqyasında geniş təbliğidir. Bu mənada Fondun Rusiya nümayəndəliyinin fəaliyyəti xüsusi diqqət cəlb edir. Faktdır ki, Azərbaycanın müasir gəncliyinin layiqli, vətənpərvər təmsilçisi kimi Leyla Əliyeva fondun Rusiya nümayəndəliyinə yüksək səviyyədə rəhbərlik etməklə yanaşı, ölkəmizin Rusiyada, eləcə də onun sərhədlərindən kənarda təbliğində mühüm rol oynayır. Məhz Leyla Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi Azərbaycanın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının təbliği, diaspor hərəkatının genişləndirilməsi istiqamətində böyük işlər görmüşdür. Bu gün də Rusiya ilə Azərbaycan arasında mədəni dialoqun genişləndirilməsi istiqamətində atılan addımlar, Rusiyanın mədəni ictimaiyyəti ilə müxtəlif səviyyəli görüşlərin keçirilməsi Azərbaycanın zəngin mədəniyyətinin qonşu ölkədə təbliği siyasəti uğurla davam etdirilir.

Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi altında Rusiyada yaşayan soydaşlarımızın təşkilatlanması istiqamətində mühüm işlər görülməkdədir. Belə ki, aprelin 18-də Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının (RAGT) təhsis konfransı keçirilmişdir (2, 22 aprel 2009). Bu təşkilat təkcə gənclərin Moskvada deyil, həm də müxtəlif regionlarda fəaliyyət göstərən təşəbbüs qruplarını sıx birləşdirir.

O da faktdır ki, strateji tərəfdaş olan Rusiya və Azərbaycanın əlaqələrinin daha

da möhkəmlənməsində uğurla həyata keçirilən gənclər siyasəti də mühüm rol oynayır. Bu səbəbdən şübhə doğurmur ki, yeni yaradılan təşkilatla Rusiyanın Gənclər Təşkilatları arasında yaxşı əlaqələr qurulacaq və Rusiya tərəfi həm təşkilati, həm də onun proqramlarını dəstəkləyəcəkdir. Digər tərəfdən, azərbaycanlı gənclərin Rusiyada bir təşkilatda birləşməsi gənc nəslin nümayəndələrinə hər iki ölkənin daha da yaxınlaşmasına töhfə verən mövqedən çıxış etməsinə imkan verir.

Ölkəmizdə müstəqil dövlət quruculuğunun fəal iştirakçısı kimi gənclərə lazımi diqqət və qayğı göstərilir. Gənclərimizin iqtisadi, siyasi və mədəni həyatda daha yaxından iştirakı üçün əlverişli şərait yaradılır, problemlərin həlli istiqamətində səmərəli tədbirlər həyata keçirilir. 2007-ci ilin «Gənclər ili» elan edilməsi də onlara dövlət qayğısının bariz nümunəsidir.

Beləliklə, hazırda Azərbaycanda gənclər siyasətinin ümumi prinsipləri, hüquqi bazası və təşkilati mexanizmləri təşəkkül tapmış və inkişaf edir. Gənclər siyasətinin əsas məzmunu və prinsipləri Dövlət gənclər siyasəti haqqında qanunda, prezidentin qəbul etdiyi fərman və sərəncamlarda, eləcə də dövlət proqramlarında öz əksini tapmışdır. Ölkədə yüzlərlə gənclər təşkilatı fəaliyyət göstərir. Gənclər respulikanın ictimai-siyasi həyatında, iqtisadi və mədəni inkişafında fəal iştirak edirlər. Bu gün Azərbaycanda milli-mənəvi dəyərlərimizi, ana dilimizi, adət-ənənələrimizi qoruyub yaşadan, eyni zamanda ümumbəşəri ideyaları mənimsəyərək dünyanın qabaqcıl gəncliyi ilə inteqrasiya etməyə qadir olan gənc nəsil yetişmişdir və o Azərbaycanın möhkəmləndirilməsi naminə var qüvvəsi ilə fəaliyyət göstərir.

Bu gün Azərbaycan gəncliyi beynəlxalq miqyasda mütəşəkkil təşkilatlanır və dünyanın gənclər təşkilatları ilə əlaqələrin daha geniş formada inkişaf etdirilməsində fəal rol oynamaqla Azərbaycanın dünya miqyasında nüfuzunun artmasında əsas qüvvələrdən birinə çevrilir.

## ƏDƏBİYYAT


1. Avropa Gənclər Forumunun üzvlər şurasının iclası. Bakı, «Azərbaycan» qəz., 2007, 28 aprel.
2. «Azərbaycan» qəz., Bakı, 207, 30 aprel.
3. Azərbaycan Prezidentinin gənclərlə görüşü. Bakı: Sabah, 1997, 103 s.
4. Gələcək gənclərindir. Bakı: Azərbaycan, 2004, 496 s.
5. GUAM ölkələri gənclər Forumunun I kofransı. Bakı, «Yeni Azərbaycan» qəz., 2006, 1 dekabr.
6. İslam Konfransı Təşkilatının (İKT) üzvü olan ölkələrin gəncləri dünyada gedən mütərəqqi proseslərdə fəal iştirak etməlidirlər. Bakı, «Azərbaycan» qəz., 2006, 5 sentyabr.
7. Qarayev Ə. Müstəqil Azərbaycan Respublikasında Dövlət Gənclər Siyasəti / «Dirçəliş – XXI əsr», 2004, №72, s.59-69.
8. Süleymanova S. Azərbaycanda ictimai-siyasi hərəkat. Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1999, 422 s.

## МЕЖДУНАРОДНЫЕ СВЯЗИ АЗЕРБАЙДЖАНСКОЙ МОЛОДЕЖИ НА НОВОМ ЭТАПЕ РАЗВИТИЯ

**Г.Р.ДЖАФАРОВ**

**РЕЗЮМЕ**

Автор в статье проанализировал участие молодёжи в общественно-политической жизни республики в годы независимости, международные связи молодёжи, зарождение и развитие в стране молодёжного движения и различных неправительственных молодёжных организаций, оказание государством им необходимой заботы и помощи, а также указал на неоценимую роль IV Форума молодёжи Азербайджана в организации и развитии молодёжного движения в стране. При этом особо подчеркиваются роль и значение международных связей азербайджанской молодежи с молодежными организациями стран ГУАМ, СНГ, Европы и исламского мира, также России.

## INTERNATIONAL RELATIONS OF AZERBAIJAN YOUTH ON THE NEW STAGE OF DEVELOPMENT

**H.JAFAROV**

**SUMMARY**

The author analysed the participation of the Youth in the political life of the Republic in the years of independence, their international relations, establishment and development of youth movements and youth non-govermental orqanization, state support and care for them and specifies the auspicious role of the IV Forum of the Azerbaijan Youth in the orqanization and development of the Youth Movement in the country. The role and importance of international relations of the Azerbaijani Youth with the youth orqanizations of Russia, European countries as well as CIS and GUAM countries are specifically underlined in the article.